**"Azərbaycanda 8 beynəlxalq hava limanı fəaliyyət göstərir. Sayca 9-cu hava limanı yaxın zamanlarda istifadəyə veriləcək. 9 beynəlxalq hava limanından 3-ü Azərbaycanın erməni işğalından azad edilmiş ərazisindədir. Həmçinin 1,5 milyon ton yük qəbuletmə imkanı olan karqo terminalı inşa edilir". Bu fikirləri Prezident İlham Əliyev mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə çıxışı zamanı söyləyib.**



# 9-cu Beynəlxalq Hava Limanı

## *Bölgənin iqtisadi mənzərəsi əsaslı şəkildə dəyişəcək*



Beşinci ildir ki, dövlətimiz Laçında işğalın izlərini silmək və bu ərazilərin iqtisadiyyata reinteqrasiyası üçün lazımi işlərə start verib. İşğaldan azad olunmuş torpaqlarımızda həyata keçirilən mühüm layihələrdən biri də məhz inşa edilən hava limanlarıdır. Rekord müddətdə - cəmi 8 ayda hazır olan möhtəşəm Füzuli Beynəlxalq Hava Limanı 2021-ci il oktyabrın 26-da, bir il sonra 2022-ci il oktyabrın 20-də isə Zəngilan Beynəlxalq Hava Limanının istifadəyə verilməsindən sonra regionun strateji əhəmiyyətini artıran daha bir - Laçın Beynəlxalq Hava Limanı istismara hazırlanır.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu gün işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışı vaxtında və layiqli şəkildə təmin etmək üçün inamlı addımlayır.

Qarabağın hava qapısı hesab olunan Füzuli, eləcə də Zəngilandan sonra Laçında Beynəlxalq Hava Limanı ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verməklə turizm potensialının artırılmasına da geniş imkanlar açacaq.

Laçın sakini Zaman Məmmədov deyir: "Laçın sakinləri hava limanının açılışını səbirsizliklə gözləyir. Bunun bizə turizm baxımından böyük əhəmiyyəti olacaq. Dünyanın hər yerindən füsunkar Laçına uçuşlar ediləcək. Vaxtilə dağıdılmış, bərbad günə salınmış Laçından demək olar ki, əsər-əlamət qalmayıb. Bu gün Laçın tikilir-qurulur. İnfrastruktur yenilənir. Heç bilirsiniz, Laçın necə də gözəldir. Baxdıqca doymursan. Təbiətinə bələd olanlar bilər. Uzun illər ayrı düşdük Laçından. O torpağa qayıtmaq arzusu ilə yaşadıq. Nə az, nə çox - düz 28 il".

İstismara hazırlanan Laçın hava limanı həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Sovet dövründə bu ərazidə hava limanının tikilməsi mümkün olmasa da, bu gün müstəqil Azərbaycan bunu öz gücü hesabına həyata keçirir. Bu, ölkəmizin həm texniki və maliyyə imkanlarının, həm də bu layihəni reallaşdırmaq üçün Prezident İlham Əliyevin rəhbərliyilə güclü siyasi iradənin olduğunu sübut edir.

Məlumat üçün qeyd edək ki, bu hava limanı dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroport olmaq xüsusiyyəti daşıyacaq. Laçın Beynəlxalq Hava Limanının uçuş-enmə zolağının uzunluğu 3 kilometr olmaqla 6 təyyarə dayanacağı olacaq. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə gediş-gəlişi də asanlaşdıracaq. Aeroportun beynəlxalq standartlara uyğun olaraq layihələndirilən terminal binasının sahəsi 5000 kvadratmetrdir və saatda 200 sərnişinə xidmət edəcək. Laçın Beynəlxalq Hava Limanında mövcud şərait ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verəcək. Beynəlxalq hava limanı ölkəmiz və region üçün yükdaşımaların asanlaşmasında da olduqca mühüm yer tutacaq. Xüsusilə, istehsal olunan sənaye məhsullarının dünya bazarlarına daha sürətli şəkildə çatdırılmasına imkan yaradacaq.

İndiyə qədər mümkünsüz hesab olunan bu layihənin həyata keçirilməsi isə respublikamızın gücünün, iradəsinin və iqtisadi imkanlarının təzahürü kimi tarixə həkk olunacaqdır. Sözsüz ki, Laçın Beynəlxalq Hava Limanı istismarı ilə düşmənin göz dağına çevriləcək.

Prezident İlham Əliyev təməlqoyma mərasimində söyləyib: *"Hər halda, bu gün bu tarixi hadisə baş verir, biz Laçın Beynəlxalq Hava Limanının tikintisinə start veririk. Hesab edirəm ki, bu, bir çoxları üçün gözlənilməz oldu. Bəziləri bunu möcüzə hesab edirdilər. Çünki sovet dövründə heç vaxt bu bölgədə - Kəlbəcər-Laçın zonasında hava limanı olmayıb. Məhz bu səbəbə görə. Çünki çox bahalı bir layihə ola bilərdi və məqbul yer də tapmaq mümkün deyil. Ancaq biz müstəqil Azərbaycan dövlətiyik, buna texniki imkanlarımız da, maliyyə imkanlarımız da və güclü iradəmiz də var".*

**Müşfiq MİRZƏ,**
**"Respublika".**

Respublika.- 2025.- 25 may (№109).- S.9.